## İBRAHİM İLYASLI

# Qarşınızda bir ömür sayqı duruşundayız

*Vətən müharibəsinin*
*şanlı şəhid və qazilərinə*

*Vətən sizə can dedi, Vətənə can verdiniz,*
*Damarları təpimiş torpağa qan verdiniz.*
*Otuz il otuz yerdən yaraları çatlayan,*
*Millətə qırx dörd gündə şəfayla şan verdiniz!*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Bir çağırışı bəs etdi Ali Baş Komandanın,*
*Yüz illərə tən oldu - hökmünə bax bir anın?!*
*Vahimədən yağılar pərən-pərən oldular,*
*Haləsi böyüdükcə çəkdiyiniz hilalın.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Belə Vətən savaşı yer üzü görməmişdi,*
*Nə dağı, nə dərəsi, nə düzü görməmişdi...*
*Bu xalq on min doqquz yüz əlli gecə yaşayıb,*
*On min doqquz yüz əlli gündüzü görməmişdi.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Xan Araz Sizi görcək qəhərlənib ağladı,*
*Köhlən Xudafərinin şahə qalxdı tağları.*
*O taydan bir ün qopdu, yer-göy lərzəyə gəldi,*
*Bu tayda ucalınca sənin zəfər bayrağın!*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Azğın düşmənlərinə çoxları çıxdı yiyə,*
*Avropa diş qıcadı, Asiya getdi küyə...*
*Ancaq birə-beş artdı gücünüz, qüdrətiniz,*
*"Hər zaman yanındayız!" - hayqırınca Türkiyə.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Nərənizdən Şuşada qaya qopdu, daş yandı,*
*O gün qaş qaralmadı, qaralacaq qaş yandı.*
*Dəmir yumruğunuzun zərbindən yer titrədi,*
*Odlu nəfəsinizdən düşmən başa-baş yandı!*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Ruhlar səltənətində ucalıqlar sizindi,*
*Uca başlar sizindi - uca dağlar sizindi.*
*Başqa yerdə gəzməsin haqqı haqq arayanlar,*
*Məmləkətdə haqq olan bütün haqlar sizindi.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Ürəyim pasrçalansın, üzüm ağ olsun! - dedi*
*Heç nəyimiz olmasın, Qarabağ olsun! - dedi.*
*Bundan böyük ibadət görünməyib cahanda -*
*Şəhid doğan analar: "Vətən sağ olsun!" - dedi.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*

*Azərbaycan adını sinənizdən asdınız,*
*Yeni tarix yaradıb, yeni dastan yazdınız.*
*Qazi hüzurlarıdır daha səcdə yerimiz,*
*Şəhid məzarlarıdır ən müqəddəs andımız.*
*Adınızla tarixə möhürləndi bu payız,*
*Qarşınızda bir ömür sayqı duruşundayız!*



### Zəfər Marşı

*Müzəffər Azərbaycan ordusunun Bakının*
*Azadlıq Meydanında düzənlənən Zəfər paradına*

*Ayağını yerə bir az da bərk vur,*
*Başını bir az da uca tut, əsgər!*
*Sən başdan-ayağa qürursan, qürur,*
*Sən ey komutanı Tanrıkut əsgər!*
*Göylər zəfərinə maşallah deyir,*
*Yerlərdə baqisən, inşallah, deyir!*

*Sən Tanrıdağından qopan ərənsən,*
*Qanı bozkırlara hopan ərənsən.*
*Şuşa qalasında diş-dırnağıyla*
*Yağını aslantək qapan ərənsən.*
*Göylər zəfərinə maşallah deyir,*
*Yerlərdə baqisən, inşallah, deyir!*

*Haqq sənə zəfəri halal buyurub,*
*Ulduzun üstünə hilal buyurub.*
*Bismillah! - deməyə dil verib sənə,*
*Deyincə, düşmənə zaval buyurub.*
*Göylər zəfərinə maşallah deyir,*
*Yerlərdə baqisən, inşallah, deyir!*

*Orduya dönüşə, el səni yenməz,*
*Min ırmaq yığıla, sel səni yenməz.*
*Səni yenmək üçün yaradıb Allah,*
*Özündən savayı əl səni yenməz!*
*Göylər zəfərinə maşallah deyir,*
*Yerlərdə baqisən, inşallah, deyir!*

*Ayağını yerə bir az da bərk vur,*
*Başını bir az da uca tut, əsgər.*
*Bəşərin xilası səni gözləyir,*
*Ey Haqqın ordusu, Tanrıkut əsgər!*
*Göylər zəfərinə maşallah deyir,*
*Yerlərdə baqisən, inşallah, deyir!*

*10.12.2020*



### Hulusi Akar Paşa

*Türkiyənin Müdafiə naziri Hulusi Akar sentyabrın 3-də F-16 qırıcısı ilə Egey dənizinin şimalında uçub. Yunanıstana və onu dəstəkləyənlərə sərt mesajlar verib.*

*Sənmi göylərə qalxdın,*
*Göylərmi səni çəkdi?*
*Ey yerlərə komutan,*
*Ulu göylərə bəgçi!*
*Yaşa, göylərcən yaşa! -*
*Hulusi Akar Paşa!!!*

*Nə kutlu uçuşun var,*
*Nə şahanə ləngərin!*
*Tanrı dağın aslanı,*
*Göy Tanrının əsgəri.*
*Yaşa, göylərcən yaşa! -*
*Hulusi Akar Paşa!!!*

*Nə zamandı səmalar*
*Həsrətini çəkirdi...*
*Türkün sınırlarında*
*Yapalaqlar səkirdi.*
*Yaşa, göylərcən yaşa! -*
*Hulusi Akar Paşa!!!*

*Tamaşana dayanıb,*
*Türkün daşı, torpağı.*
*Dostlara onur oldun,*
*Düşmənlərə göz dağı.*
*Yaşa, göylərcən yaşa! -*
*Hulusi Akar Paşa!!!*

*Bu tək mənim səsim yox,*
*Haqqa görkün səsidir...*
*Turan deyib, haykıran*
*Hər bir türkün səsidir.*
*Yaşa, göylərcən yaşa! -*
*Hulusi Akar Paşa!*

*04.09.2020*

### Açılır

*Kəlbəcərli dostların bu sabahlarına*

*Düz altmış min göz-göz olan yaramı*
*Bağlayıram, yatmıram ha gecələr.*

**Sücayət**

*Sabahına şükür, Tanrım, -*
*Nə gözəl sabah açılır!*
*Bağrımda bir düyün vardı,*
*Açılır, vallah, açılır!*

*Ulu göylər çalxalanır,*
*Dağlar, dərələr haqlanır.*
*Başa sevdalar bağlanır,*
*Ayaqdan günah açılır.*

*Çiçəklər qonur qarına,*
*Qışı dönür baharına...*
*"Düz altmış min" zəvvarına*
*Deyin: Qibləgah açılır!*

*25.11.2020*